

# Namiq HACIHEYDƏRLİ

Amansız ölüm qələm yoldaşımız Namiq Hacıheydərlini aramızdan apardı.

Namiq Hacıheydərli 1975-ci il sentyabrın 8-də Salyan rayonunun Varlı kəndində doğulub. 1990-cı ildə Varlı kənd əsas, 1992-ci ildə Salyan rayonu Yolüstü kənd orta məktəbini bitirib və elə həmin ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olub, 1997-ci ildə təhsilini tamamlayıb. Bədii yaradıcılığa tələbəlik illərində başlayıb. "Ey türk doğulan", "Səni tapan itirməz", "Söz sənindir", "Dağ Kolanı dastanı", "Yaralı Azərbaycan", "Sözüm sənədi, tanrım", "Muğanın səsi" kitablarının müəllifidir. 2008-ci ildə Azərbaycan Yazıçılar Birliyinin Salyanda keçirilən təsis konfransında Muğan bölməsinin sədri seçilib. Bir neçə il həmin vəzifədə işləyib. 2010-cu ildə Türk Xalqları Mədəniyyət Vəqfinin Azərbaycan təmsilçisi seçilib. Yaradıcılığından nümunələr Türkiyədə, Rusiyada, Hollandiyada, Qazaxstanda çap olunub. 2009-cu ildə "Vektor" Beynəlxalq Elm Mərkəzi tərəfindən "Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat Mükafatı"na layiq görülüb. 2013-cü ildə "Türk dünyasına xidmət ödülü"nə layiq görülüb. 2015-ci ildə türk dünyası ilə bağlı araşdırmalarına görə Türkiyə Sənət Platformu tərəfindən "2015 Türk dünyası hizmət şərəf ödülü" ilə mükafatlandırılıb.

İstedadlı şair, səmimi insan Namiq Hacıheydərlinin işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti. - 2024. - 4 may, № 16. - S. 41.